

Xaraktercə dayısına - ölməz sənətkarımız, Azərbaycanın xalq artisti Mikayıl Mirzəyə çəkib. Eyni dərəcədə çılğın, emosionaldır. Belə adamların ürəyi təmiz, əməli saleh olur. Nə yalan danışarlar, nə də saxtakarlığa boyun əyərlər. Heç kəsdən əlavə göstəriş gözləmədən vəzifələrinə məsuliyyətlə yanaşar, etimadı ləyaqətlə doğruldarlar.

# Onu hamımız qorumalıyıq

***Söhbət Ağsu Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Sevda Dəmirovadan gedir. ADMİU-nin məzunudur. Ali məktəbi bitirəndən əmək kitabçasına yalnız bir ünvan yazılıb. Burada Sevda xanımın bir xüsusiyyəti də açılır – seçdiyi peşəyə, tutduğu vəzifəyə, dostlara sədaqət!***

***1985-ci ilin may ayında hazırda rəhbəri olduğu muzeylə eyni gündə fəaliyyətə başlayıb. O vaxt kiçik elmi işçi idi. Amma yenə də eyni dərəcədə işini sevir, vəzifəsinə məsuliyyətlə yanaşırdı. Hər bir işin başlanğıcı çətin olur. Muzeydə də elə. O zaman bu muzeyin yaradılması barədə sərəncam, bir də bu məqsədlə ayrılmış otaqlar vardı. Boş otaqlar. Onları doldurmaq üçün qarşıda nə qədər çalışmaq, yerlərlə əlaqə saxlamaq, ailələrlə ünsiyyətdə olmaq gərəkdi.***

***Sevda Dəmirova bunların heç birindən çəkinmədi. Gecəsini gündüzə qatdı. Çətinlik və problemlər onu ruhdan salmadı. Nəticə də...***

***Nəticə göz qabağındadır. Hazırda muzeydə 4500-dən artıq eksponat toplanıb. Burada 8 nəfər çalışır. Səliqə-sahmanı göz oxşayan muzeydə rəngarəng tədbirlər keçirilir. Milli-mədəni dəyərlərimiz haqqında ətraflı məlumat verilir, təbliğat işləri aparılır.***

***Sevda xanımın redaksiyamıza göndərdiyi məktubda kollektivin işindən, muzeyin qarşılaşdığı problem və qazandığı uğurlardan bəhs edilir.***

- Azərbaycanın muzey şəbəkəsində tarix profilli muzeylər mühüm yer tutur. Bu, əlbəttə, qədim tarixə və mədəniyyətə malik bir xalqın öz keçmişini öyrənmək istəyi ilə bağlıdır.

Hələ 1980-cı ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikada muzey işinə aid xüsusi qərar qəbul edilmişdir. Bu muzey şəbəkəsinin inkişafına, bu işə rəhbərliyin təkminləşdirilməsinə geniş imkan yaratmışdır. Qərarda respublikanın bütün şəhər və rayonlarında tarix-diyarşünaslıq muzeylərinin yaradılması bir tələb kimi qarşıya qoyulmuşdur. Məhz 1970-1980-ci illərdə Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə Ağsunun əldə etdiyi ən böyük nailiyyəti bölgədə tarix-diyarşünaslıq muzeyinin yaradılması oldu. Bu siyasət ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Respublikamızın muzeylərində möhtərəm prezidentimizin fərmanından irəli gələn tələblər istiqamətində çox böyük işlərin görülməsi, bu sahəyə göstərilən diqqət və qayğı, Azərbaycan xalqına məxsus milli sərvəti, tariximiz və mədəniyyətimizlə bağlı dəyərləri, ulu keçmişimizi özündə yaşadan yadigarların toplanması, qorunması, öyrənilməsi və gənc nəslin tərbiyəsində əsas təbliğat vasitəsi kimi istifadə edilməsi təqdirəlayiq bir işdir. Bu baxımdan Şirvan bölgəsinin mərkəzində yerləşən Ağsu şəhərində 1985-ci ilin may ayında yaradılan Ağsu Rayon Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyət göstərməsinin də böyük əhəmiyyəti var.

Sevindirici haldır ki, 2002-ci ildə Ağsu Rayon İcra Hakimiyyətinin Başçısı Əflatun Rufiyev bu vəzifəyə təyin olunduğu ilk günlərdən rayonda tikinti-quruculuq, abadlıq işlərinə inamla başlamışdır. Belə ki, rayonda aparılan geniş təmir-tikinti işləri tarix-diyarşünaslıq muzeyindən də yan keçməmişdir.

2003-cü ilin oktyabr ayında məhz cənab Ə.Rufiyevin şəxsi təşəbbüsü ilə rayon tarix-diyarşünaslıq muzeyi sözün əsl mənasında ən müasir üslubda təmir olunmuş, ye-



ni görkəm almışdır. Muzeyin bütün bölmələri, guşələr, eksponatlar tamamilə yenidən bərpa edilmişdir.

Muzeyin yeni ekspozisiyasında bölgənin tarixi keçmişi və bu günü, xalqımızın azadlıq uğrunda mübarizələri, tanınmış şəxsiyyətlərin, elm və mədəniyyət xadimlərinin, xalq qəhrəmanlarının həyatı və fəaliyyəti konkret materiallar əsasında tamaşaçıya çatdırılır. Muzeyin fondunda və ekspozisiyasında olan materiallar sübut edir ki, Ağsu ərazisində lap qədimdən insanlar yaşamışdır. Müasir Ağsu rayonunun ərazisi Qafqaz Albaniyası (e.ə.IV eranın VII əsri) və Şirvanşahlar dövlətinin (IX-XVI əsrlər) mərkəzi hissəsini, Ağsu çay və Girdiman çay vadisini əhatə edir. Bu çayların vadiləri bərəkətli, münbit topaqları, təbii zənginlikləri ilə tarix boyu insanların diqqətini cəlb etmiş və əhalinin çıx məskunlaşdığı mədəniyyət mərkəzinə çevrilmişdir. Odur ki, Ağsu rayonu ərazisi Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid abidələrlə çox zəngindir. Həm də bu abidələr xronoloji cəhətdən böyük bir dövrü - enolit dövründən başlayaraq orta əsrlərin sonunadək olan geniş bir tarixi mərhələni əhatə edir.

Ağsu rayonunun Nüydü, Nuran, Sanqalan, Qırlar, Gəgəli, Ərəbmehdibəy, Qaraqoyunlu, Padar, Bico, Qəşəd, Rəhimli və s. kəndləri ərazisində mövcud olan qədim antiq orta əsrlər dövrlərinə adi yaşayış yerləri, nekropollar, qəbirstanlıqlar, qalalar, türbələr, dini ibadətgahlar və başqa maddi mədəniyyət abidələri xalqımızın əvəzsiz tarixi xəzinələridir. Şeyx Dursun türbəsi, Şeyx Əmir Əhməd türbəsi, Pir Bəxtiyar türbəsi, Bilal Əfəndi məscidi, Ağ gümbəz, Qırmızı gümbəz və başqa memarlıq abidələri orta əsrlər dövründən bizə gəlib çatan qiymətli maddi mədəniyyət abidələridir. Bu abidələr rayonun tarixinin qədimliyinə dəlalət edir.

Rayonun tarixini əks etdirmək üçün Ağsu Rayon Tarix-Diyarşünaslıq Muzeyinə ayrılan bina gümbəz formasında ikimərtəbəlidir. Birinci mərtəbə üç salondan ibarətdir. İkinci mərtəbə 60-80 $m^2$. sahəsi olan böyük salondur. Ümumiyyətlə muzeyin ekspozisiya şöbəsi 340 $m^2$-dən artıqdır. Birinci mərtəbə ilə ikinci mərtəbəni ikitərəfli pilləkanlar birləşdirir.

Birinci mərtəbə foyedən başlayır. Foyedə Ağsu rayonu haqqında ümumi məlumatlar verilir. Muzeyin ekspozisiyasının birinci zalında rayonun fiziki-coğrafi şəraiti, flora və faunası, təbii sərvətləri barədə məlumat verilir. Ekspozisiyada qədim dövrdən başlayaraq XX əsrə qədərki bir dövrü əhatə edən materiallar nümayiş etdirilir. Rayon ərazisində əsaslı arxeoloji qazıntıların aparılmaması ilə əlaqədar muzeydə qədim dövrə aid o qədər də zəngin materillar toplanmayıb. Yalnız təsadüfi tapıntılarla ekspozisiyanın bu zalı qurulmuşdur. Bütün bunları nəzərə alıb köməkçi materillardan, fotoşəkil və maketlərdən mövzunu tamamlamaq üçün istifadə edilmişdir.

Ekspozisiyanın ikinci zalında Ağsu bölgəsinin tarixində böyük əhəmiyyət kəsb edən «Şirvanşahlar dövləti» mövzusuna geniş yer verilir. Həmçinin «Yeni Şamaxı» mövzusuna da xüsusi yer ayrılıb. Bu bölmədə orta əsrlər dövrünə aid və Çar Rusiyası dövrünə aid eksponatlar nümayiş etdirilir. Bunların arasında mis badyalar, sərniclər, sinilər, samovarlar, çaynik, piyalə, qənddan, cam, tava, sərpuc, açar, teşt, abugərdan, üzəngi, taxta-dəmir kirgidlər, çar Rusiyası dövrünə aid gümüş pullar, dəmir taxta tüfəng, dəri çarıq, dəmir maşa, çini kasa, dəmir kotan, vəl daşı, araba çarxı, metal pul («Yeni Şamaxı» xaraba şəhər adlı yaşayış məntəqəsindən tapılmışdır) qadın bəzək əşyaları və s. vardır.

Ekspozisiyanın birinci zalında 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti 1919-cu il Azərbaycan Milli Hökumətinə aid pullar, sovet dövründə çıxan kağız və metal pullar, kolxozçulara aid fotoşəkillər, təbrik məktubları, vəsiqələr, fəxri fərmanlar, Böyük Vətən Müharibəsi Veteranları haqqında məlumatlar, onların fotoşəkilləri, deputat vəsiqələri, Ağsunun «Birlik» və «Ağsu» qəzetlərinin nömrələri və s. nümayiş etdirilir.

Ekspozisiyanın üçüncü zalı ümummilli liderimiz cənab Heydər Əliyevin ölkəyə başçılıq etdiyi dövrlərdəki fəaliyyətinə və onun layiqli davamçısı Prezident İlham Əliyevin dövlətimizin müstəqilliyi yolunda gördüyü quruculuq işlərinə həsr olunmuşdur. Bu bölməni nəfis formada tərtib olunmuş fotoşəkillər, elmi və bədii əsərlər daha da zənginləşdirir.

İkinci mərtəbənin əsas hissəsi 1980-1990-cı illərin demokratik hərəkatına həsr olunmuşdur. Burada «Şəhidlər» bölməsində Qarabağ müharibəsində həlak olmuş Ağsu «Şəhidlər»i haqqında məlumatlar, onların döyüş yolu və fotoşəkilləri əks olunmuşdur. Muzeydə Ağsunun yaradıcı adamları haqqında da məlumatlar verilir, onların əsərləri saxlanılır. Ağsunun yaradıcı adamlarından Respublikanın Əməkdar müəllimi Ağasəf Həsənovun tərcümeyi-halı, rayonun ilk müəllimlərindən olan Məsmə Atakişiyeva haqqında məlumatlar, coğrafiya elmləri doktoru, professor Ş.Həsənov, A.Mehbalıyev, C.Mirzəliyev, F.Osmanov, F.Xəlilov və başqaları haqqında məlumatlar, onların əsərləri Ağsu Tarix-Diyarşünaslıq Muzeyini daha da zənginləşdirir.

Bu gün müstəqil Azərbaycan Respublikasının muzeyləri o, cümlədən Ağsu RayonTarix-Diyarşünaslıq Muzeyi də tariximizi özündə yaşadan əşyaları tanıyır, qoruyur, öyrənir və təbliğ edir.

**Sevda DƏMİROVA,**
**Ağsu Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru**